# KİTABXANALARARASI RESURS PAYLAŞIMININ TARİXİ VƏ TEXNOLOJİ İNKİŞAFI: "RSCVD" LAYİHƏSİNİN AZƏRBAYCAN KİTABXANALARINDA TƏTBİQİ PERSPEKTİVLƏRİ

***Elçin Çingiz oğlu Məmmədov***

*Texnika üzrə fəlsəfə doktoru,*
*ADA Universiteti Kitabxanasının direktoru,*
*Kitabxana və İnformasiya Xidmətləri Departamenti*
*Əhmədbəy Ağaoğlu küç. 61,*
*emammadov@ada.edu.az*

***Vəfa Məlikheydər qızı Məmmədova***

*Bakı Dövlət Universiteti*
*Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrası,*
*doktorant*
*akademik Zahid Xəlilov küç. 23,*
*vmammadova@ada.edu.az*

***Açar sözlər:*** *elektron kitabxana, resurs paylaşımı, KAA, sənəd təminatı, RSCVD*
***Ключевые слова:*** *электронная библиотека, совместное использование ресурсов, МБА, предоставление документов, RSCVD*
***Keywords:*** *electronic library, resource sharing, ILL, document delivery, RSCVD*

**Xülasə:** Məqalədə Kitabxanalararası Resurs Paylaşımı (KRP) anlayışı, Kitabxanalararası Abonement (KAA), Sənəd Təminatı (ST) kimi xidmətlərin tarixi keçmişindən bu günümüzə qədər olan vacib tarixi hadisələr araşdırılıb təqdim edilmişdir. KRP-nin inkişaf tendensiyası dörd əsas dövrdə Antik, Orta Əsrlər, XX Əsr və yaşadığımız İnformasiya Əsri üzrə sistemləşdirilmişdir. KAA və ST xidmətlərinin Covid 19 dönəmindən sonra daha da intensiv araşdırma obyektinə çevrilməsi və bu sahədə əldə olunan nailiyyətlər əks olunmuşdur. Sonda bu proseslərin axarında Azərbaycan kitabxanalarının Kitabxanalararası Resurs Paylaşımı istiqamətində klassik dövrü və inkişaf perspektivləri diqqətə çatdırlmışdır.

**Резюме:** В статье рассматриваются и представляются важные исторические события от исторического прошлого до наших дней, такие как концепции межбиблиотечного обмена ресурсами (МОР), межбиблиотечного абонемента (МБА) и предоставление документов (ПД). Тенденция развития МОР была систематизирована по четырем основным периодам: античность, средние века, XX век и информационная эпоха, в которой мы живем. Отражен тот факт, что службы МБА и ПД стали предметом еще более интенсивных исследований после эпохи Covid-19, а также достижения, достигнутые в этой области. В заключение были рассмотрены классический период и перспективы развития азербайджанских библиотек в направлении межбиблиотечного обмена ресурсами в ходе этих процессов.

**Summary:** The article examines and presents the concept of Interlibrary Resource Sharing (IRS), the historical past of the services such as Interlibrary Loan (ILL), Document Delivery (DD) and important historical events up to the present day. The development trend of IRS is systematized in four main periods: Antiquity, the Middle Ages, the 20th Century and the Information Age we live in. The transformation of ILL and DD services into an even more intensive research object after the Covid-19 period and the achievements in this field were reflected. Finally, the classical period and

development prospects of Azerbaijani libraries in the direction of Interlibrary Resource Sharing in the course of these processes were brought to attention.

**Giriş:** Kitabxanaların qarşılıqlı olaraq resurs mübadilə etməsi və paylaşması, KAA (Kitabxanalararası Abonement) və ST (Sənəd Təminatı) tarixi-coğrafi məkan, ölkə, sosial və iqtisadi vəziyyətdən asılı olaraq müxtəlif dövr və prosesləri əhatə etmişdir.

**İlkin Təcrübələr**

Kitabxanalararası abonement fəaliyyətinin tarixi birbaşa kitabxanaların tarixi ilə sıx bağlıdır. Qədim İsgəndəriyyə kitabxanası yazılı materialları şəhərə gələn gəmilərdən və digər səyahətçilərdən müsadirə etmək siyasətinə malik idi. O zamanın kitabxanaçıları bu materialları köçürərək orijinalını saxlayır, surətini isə materialın götürüldüyü şəxsə qaytarırdılar. Öyrənmək istəyən şəxs isə materialları tapmaq üçün İsgəndəriyyə kitabxanasına müraciət edirdi [9, s.37]. Qərbi Avropada isə kitabların ödünc verilmə təcrübəsi VIII əsrə təsadüf edir. Bodleian Kitabxanasında saxlanılan VIII əsrə aid Avqustinin "*De Trinitate"* əsərinin sonunda boş buraxılmış bir səhifəyə anqlo-sakson əl yazısı ilə kiçik bir kitab siyahısı yazılmışdı. Elias A. Lowe-nin tərcümə və təhlili göstərir ki, bu siyahı çox güman ki, "Virsburq"dakı Müqəddəs "Kilian"ın qədim kitabxanasının əlyazmalar kataloqu idi və bir neçə kitab Holzkirchen və Fulda monastırına borc verilmişdi. Bu üç qurum coğrafi cəhətdən bir-birinə yaxın idi, "Holzkirchen" isə "Fulda" monastırının bir filialı idi. Sonrakı dönəmlərdə İspaniyada İslam idarəetməsi dövründə, xüsusilə 1236-cı ildə Kordova və Bağdad arasında geniş miqyasda kitab mübadiləsi aparılırdı [7, s. 499-501]

**Orta Əsrlər**

Orta əsrlərdə Gabriel Naudé 1627-ci ildə "Kitabxananın yaradılmasına dair məsləhətlər" əsərində kitabların mübadilə və ödünc verilməsini asanlaşdırmaq üçün onların kataloqunu yaratmağın əhəmiyyətini vurğulamışdır. Nicolas Claude Fabri de Peiresc (1580–1637) Parisdəki Kral Kitabxanası ilə Romadakı Vatikan Kitabxanası arasında kitabxanalararası ödüncvermə sistemi qurmağa çalışdı, lakin bürokratik maneələr səbəbindən uğursuz oldu [7, s. 502]. Uzaq Şərq, Çində resurs mübadiləsi və paylaşımı XVII əsrə (Ming və Qing sülalələri dövrünə) aiddir. Bibliofil "Rong Cao" (1613-1685) kitab dövriyyəsi və nüsxələmə metodlarını təsvir etmişdir. [3, s. 145-146].

**Müasir Dövrə Doğru: Yeni Çağırışlar və İlkin Elektron Təcrübələr**

XIX-XX əsrlərdə daha çox istinad edilən praktik nümunələrdən, ABŞ-da 1876-cı ildə Samuel Qrin Avropa modelləri əsasında milli kitabxanalararası abonement sisteminin yaradılmasını təklif etmişdir. Avstriya isə 1883-cü ildə yerli kitabxanaların mərkəzi hökumətin təsdiqi olmadan xaricə kitablar ödünc verməsinə icazə verən ilk ölkələrdən biri oldu [7, s. 508].

Kitabxana Resurslarının Paylaşılması tendensiyalarının sürətli inkişafı 30 Sentyabr 1927-ci ildə Şotlandiyanın Edinburq şəhərində Böyük Britaniya Kitabxana Assosiasiyasının illik iclasında "Kitabxana Assosiasiya və İnstitutlarının Beynəlxalq Federasiyası"nın təsis edilməsinə dəlalət edən əsas faktorlardan olmuşdur. II Dünya Müharibəsindən sonra beynəlxalq kitabxanalararası abonement proseslərinin çoxalması müşahidə edilirdi, KAİBF tərəfindən 1954-cü ildə "Beynəlxalq Resurs Mübadiləsi və Sənəd Çatdırılması: Prinsiplər və Prosedurlar Üçün Təlimatlar" sənədini nəşr etdi.

XX əsrin 60-cı illərində diqqəti cəlb edən digər qlobal layihələrdən biri də Ohayo Ştatında fəaliyyət göstərən kollec kitabxanaları arasında şəbəkənin qurulması oldu. Hazırda ilə OCLC, aparıcı qlobal kitabxana təşkilatı olaraq üzvlərinə və ümumi kitabxana icmasına ortaq texnoloji xidmətlər, orijinal araşdırmalar, həllər və icma proqramları təqdim edir [4].

Kitabxana idarəetmə sistemləri üzrə xidmət göstərən bir çox müasir qlobal şirkətlər, nümunə üçün "OCLC/WMS - International ILL Toolkit", "ExLibris/Alma - Inter-Library Loan online community", "Koha Community / Koha" və s. "KAA"-nı vacib baza modullarından biri kimi sistemə daxil etmişdirlər [6, s.91-92].

XX əsrin sonlarından etibarən qərbdən şərqə doğru ayrı-ayrı ölkələrdə kitabxanalar və kitabxana konsorsiumları kitabxana resurs paylaşımı sistemlərini formalaşdırmağa başlayırlar. Bu layihələrə ABŞ-da "DOCLINE", ABŞ Milli Tibb Kitabxanası (NLM) tərəfindən 1985-ci ildə yaradılmış və 1987-ci ildən etibarən geniş istifadəyə verilmiş avtomatlaşdırılmış kitabxanalararası abonement sistemi [11, s. 79-80]; Almaniyada "SUBITO", Almaniyanın Sənaye və Texnologiyalar üzrə Federal Araşdırmalar Nazirliyinin təşəbbüsü ilə 1994-cü ildə yaradılmış ödənişli sənəd çatdırılma xidməti [8, s. 1-6]; Türkiyədə 2006-cı ildən fəaliyyət göstərən ANKOS Əməkdaşlıq Araşdırma Qrupu üzərində işlədiyi "Kitabxanalararası Əməkdaşlıq İzləmə Sistemi" (KITS) və s. layihələri nümunə göstərmək olar [1, s. 5].

Bu sahədə qlobal səviyyədə keçirilən konfranslara isə 1988-ci ildə Londonda keçirilmiş və IFLA-nın "Nəşrlərin Universal Əlyetərliliyi Ofisi" (UAP) və "Beynəlxalq Kitabxanalararası Mübadilə" bölməsi tərəfindən ilk dəfə olaraq təşkil olunmuş ILDS (Interlending and Document Supply) Konfransını xüsusi qeyd etmək olar. 28 ölkədən 230 nümayəndənin qatıldığı bu tədbirin uğuru, konfransın mütəmadi şəkildə keçirilməsinə səbəb olmuşdur. İkinci konfrans da 1990-cı ildə yenidən Londonda baş tutmuş və iki ildən bir keçirilən bu konfrans sonrakı dövrlərdə Macarıstan, Kanada, Danimarka və s. ölkələrdə təşkil edilmişdir [2, s. 89].

**XXI əsr: KRP - Rəqəmsal Transformasiyalar**

Müasir kitabxanalararası resurs paylaşımı sistemləri bir çox elektron və fiziki informasiya daşıyıcılarının səmərəli, effektiv və inklüziv prinsiplərlə əldə olunmasını təmin edən kommersiya və həmçinin açıq lisenziyalı onlayn informasiya axtarışı sistemləridir. Bu kimi platformalara ehtiyac yaradan əsas amillərdən kitabxanaların, *1. Təlim-tədris və əlaqəli müəssisələrinin qlobal nəşr olunan resursların hamısının komplektləşdirilməsində limitlərin mövcudluğu, xüsusilə çağdaş informasiyanın müxtəlif növ daşıyıcılarda olmasını nəzərə alaraq həm maliyyə, fiziki və virtual məkan, həmçinin tələb və təklif məsələləri ilə sıx bağlıdır. 2. İnformasiyanın əlyetərli olması baxımından digər vacib bir məqam kommersiya əsaslı lisenziyalaşdırılmış akademik bazaların hər tədqiqatçıya açıq olmamasıdır. Bəli qeyd edilə bilər ki, bir çox aparıcı nəşriyyatların Açıq Əlyetərlilik (ing. Open Access) lisenziyalı nəşrləri mövcuddur, lakin tam əhatəli tədqiqatların aparılması üçün kəmiyyət baxımından yetərli olmaya bilər. 3. Həmçinin son dövrlərin texnoloji nailiyyətlərindən olan "Süni İntellekt" imkanları vasitəsilə biblioqrafik məlumat sürətli və analitik formada əldə edilə bilər, lakin bu texnologiya da müəllif hüququ, lisenziya baxımından kommersiya bazalarında toplanılan materiallara çıxışı təmin edə bilmir. 4. Digər səbəb kimi isə universitet, institut, akademiya və s. təhsil və tədqiqat müəssisələrinin individual və xüsusi nəşrləri, verilənlər bazaları və ümumilikdə spesifik informasiya ehtiyatlarının mövcud olmasıdır.*

Qeyd etmək təqdirəlayiqdir ki, Cənubi Qafqazda ilk dəfə KAİBF, Sənəd Təminatı və Resurs Paylaşımı Daimi Komitəsi və ADA Universitetinin Kitabxana və İnformasiya Departamentinin birgə təşkil etdiyi "Qlobaldan Lokala: Resurs Paylaşımında Müxtəliflik və İnklüzivlik" mövzusunda 18-ci Kitabxanalar Arası Abonement və Sənəd Təminatı Konfransı 2-4 Dekabr, 2024-cü il tarixlərində ADA Universiteti, Bakı, Azərbaycanda təşkil edilmişdir [5].

Konfransın ən mühüm təcrübi nəticələrindən biri də, Resurs Paylaşımı və Sənəd Çatdırılması Könüllü İcmasının (Resource Sharing Collaborative and Voluntary Document Delivery Community) təqdim etdiyi [10] Beynəlxalq Resurs Paylaşımı platformasını nümunə gətirmək olar. Bu platformanın vacib üstünlükləri sistemin dörd əsas dildə İngilis, İtalyan, İspan və Türk çalışması, açıq lisenziyalı platforma üzərində fəaliyyət göstərməsi, xüsusi İT və Texnologiya tələbinin olmaması və istifadəsinin ödənişsiz olmasıdır.

**Nəticə:** KAA və ST istiqamətində Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün tipdə olan kitabxanaların fəaliyyət istiqamətini və həmçinin elmi işləri araşdırsaq, bu prosesin tarixən klassik model bazasında çalışdığını müşahidə edə bilərik. Həmçinin ötən əsrin 90-cı illərindən sonra Res-

publikamızda tətbiq edilən "İRBİS-32/64", "MARC-SQL", "Destiny" nümunəsində AKİS-in tərkibində "KAA" funksional modulu və Z39.50 Biblioqrafik Məlumat Paylaşımı Protokolu kimi mövcud idi. Lakin, bu istiqamətdə standartlara uyğun avtomatlaşdırılmış və ya elektron xidmətlərin aparılması üçün münbit mühit tam formalaşmamışdı. Ümumilikdə müşahidə etsək, Azərbaycanda və həmçinin qlobal səviyyədə, xüsusilə akademik kitabxanalarda elektron resurs paylaşımı mövzusu Covid-19 pandemiyasından sonra daha da geniş vüsət alımşdır. "RSCVD" resurs paylaşım sistemi həmin dövrdə beynəlxalq araşdırma və əməkdaşlıq işlərinin özünəməxsus bir nümunəsi kimi başlamış mühüm layihələrdən biridir.

Bu layihə Azərbaycan kitabxana ekosistemi üçün də vacib önəm daşımaqdadır, belə ki, Respublikamızda profilindən asılı olmayaraq bütün fəaliyyət göstərən kitabxanalar həm lokal olaraq birbirilə və həmçinin qlobal səviyyədə mərkəzləşdirilmiş elektron kommunikasiya, əməkdaşlıq və resurs paylaşımı etmək imkanları olacaqdır. Məmnuniyyətlə qeyd etmək lazımdır ki, bu üsulla uzun müddətli Elektronlaşdırılmış Kitabxanalararası Abonement, Sənəd Təminatı məsələlərinin həlli təqdim edilir.

## Ədəbiyyat


1. *Cimen, E.* New approaches for interlibrary loan operations in Turkey; KITS (Interlibrary Loan Tracking System) / E. Cimen, A. Tuglu, M. Manyas [et al.] // Proceedings of the World Library and Information Congress: 75th IFLA General Conference and Council. – 2009. URL: https://www.ifla.org/past-wlic/2009/143-cimen-en.pdf
2. *Cornish, G. P.* Many titles, one editor: A history of Interlending & Document Supply // Interlending & Document Supply. – 2001. № 29(2), - pp. 86–92. URL: https://doi.org/10.1108/02641610110386083
3. *Fang, C.* The history and development of interlibrary loans and document supply in China // Interlending & Document Supply. – 2007. № 35(3), - pp. 145–153. URL: https://doi.org / 10. 1108 / 02641610710780818
4. History // OhioLINK.– Retrieved: April 15, 2025. URL: https://www.ohiolink.edu/content/history
5. IFLA & ADA University // 18th Interlending and Document Supply Conference: Diversity and Inclusiveness in Resource Sharing [Conference]. - Baku: ADA University. - 2-4 December, - 2024.
6. *Leon, L.*, & Kochan, C. A. Collective and Creative Learning to Enhance Interlibrary Loan // Journal of Library Resource Sharing. – 2021. № 30(3-5), - pp. 85–94. URL: https://doi.org/ 10.1080/ 1072303X.2022. 2100858
7. *Miguel, T. M.* Exchanging Books in Western Europe: A Brief History of International Interlibrary Loan // International Journal of Legal Information. – 2007. № 35(3), - pp. 499–513. URL: https://doi.org / 10.1017/S073112650000247X
8. *Mueller, H.* The SUBITO case in Germany: Implications for libraries // Proceedngs of World Library and Information Congress: 72nd IFLA General Conference and Council. – 2006. - pp. 1–6. URL: https://origin-archive.ifla.org/IV/ifla72/papers/089-Mueller-en.pdf
9. *Rogers, D.* Best Interlibrary Loan Practices for Law Firm Libraries // Journal of Interlibrary Loan, Document Delivery & Information Supply. – 2003. № 13(4), - pp. 33–62. URL: https://doi.org/10.1300/ J110v13n04_05
10. RSCVD: Resource Sharing during COVID-19 // IFLA Document Delivery and Resource Sharing Section. - [Web portal]. URL: https://app.rscvd.ifla.org/
11. *Young, D. E.* Not Just Another Interlibrary Loan Librarian // Journal of Hospital Librarianship. – 2011. № 11(1), - pp. 78–86. URL: https://doi.org/10.1080/15323269.2011.538628